

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 172 (21.833)

13 sentyabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Kestutis Yankauskasın etimadnaməsini qəbul edib.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib ki, bütün sahələrdə qarşılıqlı maraqlara əsaslanan Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərimi əsirgəməyəcəyəm.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyinin dəyişməz qalacağına ümidvar olduğunu ifadə edib.

* * *

Prezident İlham Əliyev sentyabrın 12-də Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyevin etimadnaməsini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Macarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Viktor Szederkenyinin etimadnaməsini qəbul edib.

## Naxçıvan Duz Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvanın Nuh peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb etmiş, yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, on altıncı əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir.

Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə verilən "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində Nuh peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Tədqiqatlar göstərir ki, bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir.

Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılmış, müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatları aşkar olunmuşdur. Aparılan tədqiqatların davamı olaraq "Uluslararası qaynaqlarda Naxçıvan", "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapmış, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanmış, kitablar nəşr olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq və Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu nəzərə alaraq, aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsi, elmi araşdırmalar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Duz Muzeyi yaradılsın.
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 sentyabr 2017-ci il*

## Muxtar respublikada bütün sahələrdə infrastruktur yenilənir



*Makroiqtisadi sabitliyin, iqtisadi artımın təmin olunmasında, sosial sahənin inkişafında investisiya qoyuluşları mühüm yer tutur.*

Muxtar respublikada son illər ərzində həyata keçirilən tədbirlər nəticəsində bütün sahələrdə infrastruktur yenilənmiş, yeni iş yerləri açılmış, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Heç şübhəsiz ki, əldə olunmuş uğurlarda məqsədyönlü siyasət, konkret vəzifələri özündə əks etdirən dövlət proqramları və digər tədbirlər mühüm rol oynamışdır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 997 milyon 609 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 4,5 dəfə çoxdur. Ümumilikdə, son 10 il ərzində muxtar respublikada iqtisadi və sosial sahələrə 7 milyard 154 milyon 193 min 400 manat həcmində investisiya yönəldilmişdir. 2007-ci ildən 1 yanvar 2017-ci il tarixədək investisiya qoyuluşlarının 6 milyard 345 milyon 844 min 600 manatını və ya 88,7 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Ümumi investisiya qoyuluşunun 4 milyard 388 milyon 679 min 200 manatı və ya 61,3 faizi istehsal təyinatlı obyektlərin, 2 milyard 765 milyon 514 min 200 manatı və ya 38,7 faizi qeyri-istehsal sahələrinin payına düşmüşdür.



Son 10 il ərzində iqtisadiyyatın sahələri üzrə ümumi investisiya qoyuluşuna görə sənaye sahəsi 30,1 faizlik payla ilk yeri tutmuşdur. İnvestisiya qoyuluşunun 4,6 faizi kənd təsərrüfatı sahəsinin, 14,3 faizi ticarət və xidmət sahəsinin, 16,6 faizi mənzil tikintisinin, 9 faizi nəqliyyat sahəsinin, 0,8 faizi informasiya və rabitə sahəsinin, 24,6 faizi isə iqtisadiyyatın digər sahələrinin payına düşmüşdür.

Muxtar respublikada ötən 10 il ərzində infrastruktur quruculuğu tədbirləri çərçivəsində 105 elm və təhsil müəssisəsi, o cümlədən 19 min 260 şagird yerlik 63 ümumtəhsil məktəbi, 214 inzibati bina, 27 nasos stansiyası, 125 subartezian quyusu, 58 körpü, 218 mədəniyyət müəssisəsi, 130 səhiyyə müəssisəsi, 621 istehsal və xidmət sahəsi, 16 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 117 fərdi ev və digər obyektlər tikilmişdir.

Bundan əlavə, bu dövr ərzində 108 elm və təhsil müəssisəsi, o cümlədən 37 min 644 şagird yerlik 75 ümumtəhsil məktəbi, 126 inzibati bina, 43 nasos stansiyası, 19 subartezian quyusu, 35 körpü, 120 mədəniyyət müəssisəsi, 20 səhiyyə müəssisəsi,



15 idman obyekti və digər obyektlər yenidən qurulmuşdur.

Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində ötən dövr ərzində muxtar respublikada 4 qəsəbə və 127 kənd mərkəzi istifadəyə verilmişdir.

İnfrastruktur quruculuğunda əhali qrupu tərəfindən həyata keçirilən investisiya qoyuluşları da mühüm rol oynamış, ümumilikdə, son 10 ildə əhalinin şəxsi vəsaiti hesabına 2 milyon 735 min 700 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir. Təkcə 2016-cı ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 376 min 277 kvadratmetr yaşayış sahəsi tikilmişdir ki, bu da 2007-ci ildəki göstəricidən 5,7 dəfə çoxdur.

Əhalinin rahatlığına və yaşayış standartlarının yüksəldilməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması xüsusilə diqqətdə saxlanılmışdır. Bu istiqamətdə 2014-cü ildə Naxçıvan şəhərində Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, 2015-ci ildə Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi, 2016-cı ildə Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir.

2015-ci ildə Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su və kanalizasiya şəbəkəsində işlər tamamlanaraq evlərə su verilmiş, Şərur, Babək, Ordubad, Kəngərli və Sədərək rayonlarında içməli su və kanalizasiya xətlərinin tikintisi hazırda davam etdirilir. Bundan əlavə, Naxçıvan şəhərində və Şahbuz rayonunda çirkab sutəmizləyici qurğunun tikintisi aparılmaqdadır.

İqtisadiyyatın aparıcı qüvvəsi olan nəqliyyat sektorunun artan əhali tələbatına uyğun olaraq səmərəli idarə olunması istiqamətində tədbirlər davam etdirilmiş, son on ildə muxtar respublikada 1415,5 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bu dövr ərzində hava və dəmiryolu nəqliyyatının inkişafı istiqamətində infrastruktur yenilənmiş, inzibati və yardımçı binalar istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmişdir.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu istiqamətdə 2016-cı ildə muxtar respublikada 4-cü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. İnformasiya və rabitə sahəsində aparılmış tədbirlərin nəticəsidir ki, 1 iyul 2017-ci il tarixə muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidməti göstərilmişdir.

İqtisadi fəaliyyətin bütün sahələri üzrə əldə olunmuş uğurlar səmərəli məşğulluğun təmini ilə yanaşı, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına, muxtar respublikanın dinamik inkişafına müsbət təsir göstərmişdir. Həyata keçirilən quruculuq tədbirlərini yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir".***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi***

## Səhiyyə işçiləri üçün əmək yarmarkası keçirilib



Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasında və əhalinin işlə təminatında əsaslı rol oynayır. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə işçiləri üçün əmək yarmarkası təşkil edib.

Səhiyyə Nazirliyinin inzibati binasında keçirilən yarmarkadan əvvəl nazir Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb. Qeyd olunub ki, son illər səhiyyənin inkişafında, yeni strukturlu müəssisələrin yaradılmasında, tibbi xidmətin yüksək səviyyədə aparılmasında, tibbi kadrların hazırlanmasında müəyyən uğurlar əldə edilib. Səhiyyədə gedən islahatlar çərçivəsində əhaliyə göstərilən tibbi xidmətin gücləndirilməsi məqsədilə şəhər və rayonlarda müasir tibbi avadanlıqlar və texnika ilə təchiz edilmiş 200-dən çox yeni səhiyyə müəssisəsi istifadəyə verilib, fəaliyyət göstərən tibb müəssisələrində yenidənqurma və əsaslı təmir işləri aparılıb. Belə bir şəraitdə tibbi kadr təminatı xüsusi əhəmiyyət kəsb edir və keçirilən ənənəvi səhiyyə yarmarkaları kadr probleminin həllində, eləcə də qarşıya qoyulmuş məqsədlərə nail olmaqda tam istiqamətləndirici və tənzimləyici xarakter daşıyır. Yarmarkaya 555 vakant iş yeri təqdim edilib. İşaxtaran ali və orta tibb təhsilli məzunlar şəffaf şəkildə seçim edə bilərlər.

Tibb işçilərinin əmək yarmarkasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, səhiyyənin inkişafı sahəsində də mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə səhiyyə sisteminin yenidən qurulması, müasir standartlara uyğunlaşdırılması bu xidməti keyfiyyətcə daha da yaxşılaşdırıb, icbari tibbi sığortanın tətbiqi üçün geniş imkanlar yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 31 may tarixli Sərəncamı ilə “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə dair Tədbirlər Planı” təsdiq edilib və icrasına başlanılıb. Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəldəcəkdir. Muxtar respublikada tibbi kadrlara olan tələbatın ödənilməsi məqsədilə Naxçıvan Dövlət Universitetində ali, Naxçıvan Tibb Kollecində isə orta ixtisas təhsilli tibbi kadr hazırlığı aparılır. Kadr hazırlığı ilə yanaşı, onların işlə təminatı da diqqətdə saxlanılır. Bu məqsədlə muxtar respublikada dövlət qulluğuna qəbul imtahanları, eləcə də əmək yarmarkaları keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə keçirilən tibb işçilərinin əmək yarmarkası da artıq ənənə halını alıb. Bu yarmarka muxtar respublikanın, xüsusən də ucqar kəndlərin səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatın ödənilməsində mühüm rol oynayır.

Rəhman Məmmədov bildirib ki, kənd yerlərindəki səhiyyə müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib. Belə ki, dövlət ali və orta ixtisas təhsili məktəblərini tibbi ixtisaslar üzrə bitirərək dövlət sifarişinə uyğun iş yerlərində əmək fəaliyyətinə başlayan və bu fəaliyyəti davam etdirən gənc mütəxəssislərə 3 il müddətində kommunal xidmətləri ödəmək üçün ayda 33 manat məbləğində kompensasiya verilir. Həmçinin rayon mərkəzlərindən 20 kilometrdən artıq məsafədə yerləşən tibb müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində aylıq əməkhaqqına 66 manat məbləğində əlavələr ödənilir. Ciddi kadr tələbatı olan bölgələrdəki konkret iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə isə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım ödənilir.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, cari ilin 8 ayı ərzində aktiv məşğulluq tədbirləri çərçivəsində 1816 nəfər müvafiq iş yerlərinə göndəriş alıb, 391 nəfər peşə və ixtisasına uyğun işlə təmin olunub. Səhiyyə sahəsi üzrə təşkil olunan ənənəvi əmək yarmarkası tibbi kadrların peşə və ixtisaslarına uyğun işlə təmin olunması üçün yaradılan imkanlardan biridir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müalicə işi ixtisası üzrə məzunu Aysel İsmayılova gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, işəgötürənlər tərəfindən yaradılan şəffaf şəraitə görə öz minnətdarlığını bildirib.

Sonra yarmarkaya gələnlər vakant iş yerləri ilə tanış olublar. Gün ərzində davam edən əmək yarmarkasında 33 nəfər işə göndəriş alıb.

✍ **Səbuhi HÜSEYNOV**

*Sentyabrın 12-də Naxçıvan Şəhər İcra Hakimiyyəti Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə şəhərdə sığorta işinin mövcud vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsi ilə bağlı tədbir keçirib.*

## Naxçıvan şəhərində sığorta işinin təşkili müzakirə edilib



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov giriş sözü ilə çıxış edərək son dövrlərdə şəhərdə sığorta sahəsində görülmüş işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxışında sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirənin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Bildirilib ki, baş vermiş müxtəlif gözlənilməz hadisələrə qarşı vaxtında sığorta olunmaq dəymiş zərərlərin qısa müddətdə bərpa edilməsinə şərait yaradır. Belə ki, sığorta hadisələrinin vurduğu zərərlərə görə verilən ödənişlər insanlara maddi kömək üçün mühüm bir vasitədir.

Ötən dövrdə Naxçıvan şəhərində sığorta sahəsində görülmüş işləri təhlil edən baş direktor qeyd edib ki, sığorta fəaliyyətinin genişləndirilməsi istiqamətində müəyyən işlər görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Belə ki, cari ilin 8 ayında Naxçıvan şəhəri üzrə 11 min 996 sığorta müqaviləsi bağlanılıb ki, onlardan da 2 min 496-sı avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 4 min 412-si daşınmaz əmlakın icbari sığortası olub.

Tədbirdə Naxçıvan şəhərində sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslərin mövcud olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, qanuna əsasən icbari qaydada sığorta olunmalı bütün obyektlərin sığortası təmin edilməlidir. Baş direktor bildirib ki, qarşıya qoyulmuş vəzifə bu sahədə maksimum nəticə əldə olunması, əhali arasında sığorta mədəniyyətinin daha da yüksəldilməsi və kütləviliyin təmin olunması üçün səylərin daha da artırılmasıdır.

Tədbirdə Naxçıvan Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Bölməsinin rəisi Rəşadət Əliyev, Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə İdarəsinin Naxçıvan Şəhər Şöbəsinin rəis müavini Nəsimi Hüseynov Naxçıvan şəhərində icbari sığortaların vəziyyəti barədə məlumat veriblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov tədbirə yekun vuraraq şəhərdə sığorta işinin günün tələbləri səviyyəsində aparılması istiqamətində müvafiq tapşırıqlar verib.

✍ **Əli CABBAROV**

## Payız-qış mövsümünə hazırlıq işləri diqqətdə saxlanılır



AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin iclasında payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub.

İclasda bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə bağlı keçirilən müşavirədə verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə icrasına xüsusi diqqət yetirilir. Bu məqsədlə bölmənin elmi-tədqiqat müəssisələrində su, qaz, işıq sistemi yoxlanılıb, lazımi tədbirlər görülüb.

Sonra bölmənin İşlər idarəsinin baş mütəxəssisi Abbasəli Maqsudov payız-qış mövsümünə hazırlıq sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə tədbir iştirakçılarına məlumat verib. O, qış mövsümünə hazırlıqla əlaqədar mövcud istilik sistemlərinin vaxtında texniki baxışdan keçirildiyini, yararsız avadanlıq və xətlərin aşkar edilərək lazımi tədbirlərin görüldüyünü qeyd edib. Baş mütəxəssis ötən illərdə bölmənin elmi-tədqiqat institutlarında hər hansı bir ciddi problemin olmadığını bildirərək bu il də payız-qış mövsümünə tam hazır olduqlarını diqqətə çatdırıb.

Daha sonra bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov və Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov mövzu ilə bağlı çıxış ediblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

* * *



Naxçıvan Avtomobil Yolları Dövlət Şirkətində keçirilən tədbiri şirkətin baş direktoru Bəhruz Əsgərov açaraq bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı müşavirədə Avtomobil Yolları Dövlət Şirkətinə də bir sıra tapşırıqlar verilib. Qış aylarında ucqar kəndlərə hərəkətin fasiləsizliyinin təmin edilməsi, yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunan texnikaların saz vəziyyətə gətirilməsi, ehtiyat hissələri ilə təminat, qum ehtiyatının yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilib.

Bildirilib ki, leysan yağışları zamanı və soyuq qış mövsümündə avtomobil yollarında hərəkətin intensivliyinin təmin edilməsi məqsədilə bütün texnikalara baxış keçirilib, fəhlə və mexanizatorlar mövsümlə əlaqədar iş geyimləri ilə təmin olunublar. Ümumilikdə, 12 ədəd avtoqreyder, 29 ədəd özüyükünüboşaldan avtomaşın, 8 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 3 ədəd avtoyükləyici və 1 ədəd qartəmizləyən maşın muxtar respublikamızın ayrı-ayrı rayonlarının, ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarında yarana biləcək hər hansı bir maneənin vaxtında aradan qaldırılması üçün tam hazır vəziyyətə gətirilib. Həmçinin avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü də diqqət mərkəzində saxlanılıb, Şorsu massivində xammal daşınaraq Naxçıvan Asfalt-Beton Zavodunda qurulmuş qum-çınqıl karxanasında üyüdülərək min kubmetr ehtiyat yaradılıb.

Qeyd olunub ki, ucqar dağ kəndlərində hərəkətin fasiləsizliyini təmin etmək məqsədilə həmin kəndlərdə buldozer və traktorların işləməsi nəzərdə tutulub, bu texnikalar üçün yanacaq-sürtkü materialları ehtiyatı yaradılıb. Bundan başqa, şirkətdə qərargahın yaradılması, fövqəladə şərait rejimində işləmək üçün növbətçilik qrafiki və xəbərvermə xidmətinin təşkili, istismar olunan yollarda əsaslı və orta təmir işlərinin başa çatdırılması planlaşdırılıb.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.

Tədbirə Naxçıvan Avtomobil Yolları Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov yekun vurub.

**Xəbərlər şöbəsi**

*“Naxçıvanqaz” İstehsalat Birliyi mütəmadi olaraq təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görür.*

## *“Naxçıvanqaz”* İstehsalat Birliyi işini günün tələblərinə uyğun qurur



İstehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi məqsədilə birliyin müvafiq tədbirlər planına uyğun olaraq avqust ayı ərzində də işlər davam etdirilmişdir. Muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən 74 fərdi ev və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır.

Qaz təsərrüfatı sisteminin müasirləşməsi, istismarda olan təzyiq və qaztənzimləyicilərinin, daşıyıcı və paylayıcı qaz kəmərlərinin, nəzarətölçü cihazlarının, digər texnoloji avadanlıqların yenilənməsi istiqamətində də işlər aparılmışdır. Belə ki, Naxçıvan, “Modul”, “Qaz Turbin – Sement Zavod” qazpaylayıcı stansiyalarında olan ROC-407 qaz sayğaclarının istismar müddətinin başa çatması və ehtiyat hissələrinin istehsalının dayanmasını nəzərə alaraq Almaniya istehsalı olan G-650 markalı Elstertipli 6 qaz sayğacı alınmışdır. Qeyd olunan ölçü qovşaqlarından hər birində 2 Elstertipli qaz sayğacı quraşdırılmışdır. Həmçinin ötən ay Naxçıvan şəhərində 55 ədəd smartkarttipli qaz sayğacı istifadəyə verilmişdir.

Muxtar respublikada şəhər, rayon Qaz İstismar idarələrinin Qəza Dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçılarından qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər səbəblərə görə ay ərzində 1482 çağırış daxil olmuş, qaz təsərrüfatı şəbəkəsində 1580 sızma aşkarlanaraq aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasında 2017-ci ilin avqust ayında yeni qaz boru xətlərinin quraşdırılması, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi ilə əlaqədar olaraq 13 min 501 paqonometr borudan istifadə olunmuşdur.

***“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti***

## Geoloji Axtarış və Kəşfiyyat İdarəsində tədbir



**_Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə nazirliyin Geoloji Axtarış və Kəşfiyyat İdarəsində tədbir keçirilib._**

Tədbiri Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açaraq bildirib ki, muxtar respublika ərazisinin geoloji öyrənilməsinə ötən əsrin 30-cu illərindən başlanılıb. Qədim diyarımızın ərazisində ilk dəfə 1967-ci ildə Naxçıvan Geoloji Kəşfiyyat Ekspedisiyası yaradılıb. Ekspedisiya muxtar respublika ilə bərabər, Zəngilan, Qubadlı və Füzuli rayonlarının ərazilərində də bərk faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatını həyata keçirib. 2001-ci ildən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Milli Geoloji Kəşfiyyat Xidmətinin tərkibində Naxçıvan Geoloji Axtarış Ekspedisiyası adı ilə fəaliyyət göstərib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 oktyabr tarixli qərarı ilə Naxçıvan Geoloji Axtarış Ekspedisiyası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyinə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 6 fevral tarixli Fərmanı ilə Geoloji Axtarış Ekspedisiyasının bazasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olan Geoloji Axtarış və Kəşfiyyat İdarəsi yaradılıb və Əsasnaməsi təsdiq edilib.

Sentyabrın 6-da Culfa şəhərində nazirliyin Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleksin istifadəyə verildiyini bildirən nazir qeyd edib ki, burada geoloqların fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Vurğulanıb ki, muxtar respublikanın ərazisi qara, əlvan və nəcib metalların, radioaktiv elementlərin, həmçinin qeyri-filiz yataq və təzahürlərinin aşkar edilməsində Kiçik Qafqazın yüksək perspektivli regionlarından sayılır. Buna görə də muxtar respublika ərazisində mövcud olan mineral xammal ehtiyatının elmi şəkildə öyrənilməsi, tədqiqi və istifadə edilməsi sahəsində fəaliyyətin qurulması mühüm vəzifələrdəndir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublika ərazisində həyata keçirilən geoloji tədqiqatların nəticələrinin akademiyanın əməkdaşları ilə birgə elmi müzakirəsinin əhəmiyyətindən danışıb, bu sahədə yeni kadrların yetişdirilməsinin zəruriliyindən bəhs edib.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun direktoru Əliəddin Abbasovun və Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin rəisi Əli Vəliyevin çıxışları dinlənilib.

Sonda tədbir iştirakçıları Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleksin binaları ilə tanış olublar.

**✍ Səbuhi HƏSƏNOV**

*Turizm*

## Naxçıvanın geniş dini-ziyarət turizm potensialı vardır

**_Müasir dünya iqtisadiyyatında mühüm yer tutan turizm gəlirliliyinə və mədəniyyətlərarası dialoqdakı roluna görə xüsusilə əhəmiyyətlidir. Xalqlar arasında humanitar əlaqələrin və tolerantlığın bir göstəricisi olan turizmin inkişaf etdirilməsi bu baxımdan diqqəti cəlb edir. Ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da böyük potensialı olan dini-ziyarət turizmi belə səyahət növlərindəndir._**





Azərbaycan özünün multikultural dəyərləri, xalqımızın tolerantlığı ilə dünyada adına hörmətlə yanaşılan ölkələrdəndir. İnsanların inanc və etiqadlarına hörmət min illər ərzində formalaşmış humanist dəyərlər kimi xalqımızın yaddaşında möhkəmlənərək bugünkü milli qonaqpərvərliyimizin əsas elementlərindən birini təşkil etməkdədir. 2009-cu ildə paytaxt Bakı, önümüzdəki 2018-ci ildə isə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi də Azərbaycanın müsəlman dünyasının layiqli bir üzvü kimi dünyanın diqqət mərkəzində olmasından irəli gəlir.

Naxçıvan zəngin turizm ehtiyatları – qədim tarixi və müasir inkişafı, rəngarəng təbii müxtəlifliyi və unikal müalicə-rekreasiya məkanları, yaradılmış müasir sosial-mədəni infrastrukturu ilə güclü turizm cazibəsinə malikdir. İl ərzində 400 mindən artıq turistin səyahət etdiyi muxtar respublikamıza gələn qonaqlar buradan dərin təəssüratlarla ayrılır. Bütün bunlar Şərqlə Qərbin qovşağında yerləşən Naxçıvanın ümumi inkişafına mühüm təsir göstərməklə, eyni zamanda Azərbaycanın mədəniyyətini dünyaya tanıtmaq üçün də yaxşı fürsətdir.

Hazırda dünya üzrə dini-ziyarət turizmi geniş inkişaf edib. İl ərzində təqribən 1 milyard turistin 200 milyona yaxını məhz ziyarət məqsədilə səyahət edir. Müxtəlif din və inanc sahibləri olan insanlar bir çox dini-ziyarət mərkəzlərinə səyahətlər etməklə hər bir insan üçün zəruri olan mənəvi zənginləşmə və rekreasiya tələbatının ödənilməsinə çalışırlar. Bu da, öz növbəsində, turizm sektorunun inkişafına və iqtisadiyyatın digər sahələrinin canlanmasına səbəb olur. İnanc turizminin bahalı xidmətlərlə zəngin olması bu gəlirliyin daha da artmasına səbəb olur. Belə ki, dini-inanc turizmi kruiz və işgüzar turizmdən sonra ən sərfəli turizm növlərindən biridir. Başqa sözlə, qədimdə zəvvarlar at və dəvələrlə səyahətlərə çıxan varlı adamlar olduğu kimi, hazırda da onların böyük əksəriyyəti hava yolu və bahalı kruiz marşrutlarını seçən insanlardır. Naxçıvanın beynəlxalq hava və quru yolları və yaxın gələcəkdə istifadəyə veriləcək dəmir yolu imkanları dünyanın bir çox ölkəsindən buraya ziyarət məqsədilə gələn turistlərin qarşılanıb yola salınması üçün çox əlverişlidir.

Qeyd edək ki, dini-turizm marşrutları bəzi ölkələrdə mövsümi olsa da, muxtar respublikamızın ərazisində bu turizm növünün inkişafı üçün həmin problem yox səviyyəsindədir. Mövsümilik isə turizm üçün ənənəvi bir problemdir. Bu, xüsusən Qurban bayramı ərəfəsində Həcc ziyarəti zamanı çox kəskin şəkildə özünü göstərir. Ancaq muxtar respublikamıza gələn zəvvarlar üçün mövsümilik problemi yoxdur. Ona görə də ilboyu ölkəmizin digər yerlərindən və xarici ölkələrdən qədim diyarımıza gələn zəvvarlar Naxçıvanın ziyarətgahlarına baş çəkib, burada niyyətlərinin qəbulu üçün dualar edir, qurbanlar kəsdirirlər.

Muxtar respublikamızdakı ziyarətgahlar haqqında danışarkən ənənəvi olaraq müqəddəs Əshabi-Kəhf ziyarətgahını, Nuh Peyğəmbərin türbəsini, qədim tarixi məscidlərimizi, imamzadələri, müxtəlif pirləri sadalaya bilərik. Naxçıvanda, demək olar ki, hər kəs bu yerlərdə olub, onların yeri və tarixçəsi ilə tanışdır. Xüsusən müqəddəs Əshabi-Kəhf ziyarətgahı ilboyu ziyarətçiləri özünə çəkməkdədir. Amma insan inancının dərinliyinin sirridir ki, hər dəfə bu yerlərə ziyarətə gələnlər bir daha burada olmağı arzulayır, özü üçün əvvəlkilərdən fərqli yeni təəssüratlar əldə edirlər. Çünki bu müqəddəs məkan dünyanın elə bir nöqtəsində yerləşir ki, o sanki bütün inanc sahiblərini həyatın əbədi olaraq var oluşuna bir daha inandıra biləcək gücdədir. Daş mağarada Uca Haqqın ədalətinə sığınıb, ondan mərhəmət gözləyənlər kimi, sonsuzluq qavramını da kainatın dərinliklərində deyil, elə yaşadığın şəhərin lap yaxınlığındakı təbiət möcüzəsində axtaranlar üçün beşminillik Naxçıvanın müqəddəs məkanları, onun Əshabi-Kəhf ziyarətgahı, bu mənada, hamının ziyarət etmək istədiyi bir yerdir.

Əshabi-Kəhf ziyarətgahı Naxçıvanı dünyada tanıdan simvollardan birinə çevrilib. Keçmişdəki dəmir rejimin qadağalarına baxmayaraq, bu müqəddəs məkana ziyarətlər heç kəsilməmiş, insanlar ürəyinin hökmü ilə paklığına inandığı nə əməl varsa, onu yerinə yetirmək inadından dönməmişdir. İndi isə ölkəmiz müstəqildir və müqəddəs Əshabi-Kəhf ziyarətgahını bütün dünyanın zəvvarları ziyarət edirlər. Çünki dünyada inanclarla yaşayan tək varlıq kimi hər bir insanın Yaradanına sevgisi, insanların hörmət və məhəbbətini qazanmaq kimi ülvi duyğuları, müqəddəs yerləri ziyarət etmək və bu inancları daha da dərinləşdirmək istəyi vardır.

**✍ Əli CABBAROV**

_Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamı eynəlibəyşünaslığın yenidən canlanması üçün yeni bir stimul oldu. Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün muxtar respublikamızın elm, təhsil və mədəniyyət müəssisələri səfərbər oldular, müxtəlif tədbirlər planı tərtib edilərək onların reallaşdırılması işinə başlanıldı._




*Yeni nəşrlər*

## Folklorşünaslığımıza yeni və dəyərli töhfə

Bütün bunlarla bərabər, gənc alim, Eynəli bəy Sultanovun folklorşünaslıq fəaliyyətinin tədqiqi ilə on ilə yaxın bir müddətdə ardıcıl məşğul olan Elxan Yurdoğlu (Məmmədov) həmin sərəncamdan irəli gələn vəzifələrin həlli istiqamətində səmərəli elmi fəaliyyət göstərərək əhəmiyyətli uğurlar qazanmışdır. O, Eynəli bəyin, ümumilikdə, çoxşaxəli yaradıcılığına bələd olduğundan görkəmli sənətkarın teatr, ədəbiyyat, publisistika, jurnalistika sahələrindəki fəaliyyətinin ötəri nəzər salınmış tərəflərini bir daha qabarıq və geniş işaqlandırmağın öhdəsindən gələ bilmişdir. Belə ki, yorulmaz tədqiqatçı yubiley gününədək E.Sultanovun uşaqlar üçün qələmə aldığı "Səhhət verirsən, vermirsən?" adlı birpərdəli, alleqorik pyesini müəyyən əlavələr etməklə yenidən işləyib onu Naxçıvan Dövlət Kukla Teatrına təqdim etmiş, ədibin XIX əsrin sonu, XX əsrin əvvəllərində "Novoye obozreniye", "Yeni fikir", "Yeni yol", "İşıqlı yol" qəzetlərində, "Dan ulduzu", "Şəfəq" jurnallarında və digər mətbuat səhifələrində çap olunmuş, həmçinin əlyazma şəklində və rus dilində aşkar edilmiş hekayələrini toplayaraq, onların tərcüməsinə nail olmaqla "Hekayələr" adlı kitab nəşr etdirmişdir. İzzət Maqsudovun "Eynəli bəy Sultanovun həyat və yaradıcılığı" dissertasiyasının təkrar nəşrini və İradə Əsədovanın "Eynəli bəy Sultanovun yaradıcılıq yolu" adlı rus dilində monoqrafiyasının tərtib və nəşrini isə ilk dəfə həyata keçirmişdir.

Bu günlərdə işıq üzü görmüş "Eynəli bəy Sultanov və folklor" monoqrafiyası isə Elxan Yurdoğlunun eynəlibəyşünaslığa ən böyük töhfədir. Bu sanballı elmi əsər müəllifin uzunmüddətli və hərtərəfli axtarışlarının, tədqiqatlarının uğurlu yekunudur.

Akademik, Əməkdar elm xadimi İsa Həbibbəylinin rəhbərliyi altında ərsəyə gəlmiş bu tədqiqat əsəri giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş monoqrafiyanın rəyçiləri akademik Muxtar İmanov, AMEA-nın müxbir üzvü Kamran Əliyev, filologiya üzrə elmlər doktorları, professorlar Məhərrəm Qasımlı və Yusif Səfərovdur.

"Giriş"də müəllifin maraqlı bir nüansa toxunması və monoqrafiyanın aktuallığını tutarlı əsaslandırması təqdirəlayiqdir: "Tarix boyu süfrələrimizin başında əyləşib, yeməyimizə zəhər qatmağa çalışan mənfur qonşularımız olan ermənilərin, eləcə də Qafqaz ailəsi adı altında bir bölgədə iç-içə yaşadığımız digər xalqların bir çox hallarda Azərbaycan xalqının şifahi söz sənətini imitasiya edərək, hətta bəzən açıq şəkildə mənimsəyərək öz adlarına çıxmalarını nəzərə alsaq, o dövrün ziyalılarının folklorşünaslıq irsinin tədqiqi çox aktual problem kimi qarşımıza çıxır. Müstəqillik əldə etdikdən sonra bu istiqamətdə elmi tədqiqatların aparılması üçün də geniş imkanlar yarandığını qeyd etməliyik.

Son illər Azərbaycan folklorunun, folklorşünaslığının, yazıçı-folklor əlaqəsinin, yaradıcılıqda folklor məsələlərinin öyrənilməsi sahəsində qazanılan təcrübə, görülən işlər Eynəli bəy Sultanovun folklor toplayıcısı, tədqiqatçısı məsələsinə də geniş şəkildə yanaşma zərurətini ortaya çıxarmışdır".

Monoqrafiyanın "Eynəli bəy Sultanov və onun folklorşünaslıq görüşləri" adlanan birinci fəslində tanınmış şəxsiyyətin həyatı və mühiti də bir daha xatırlanır, folklorşünaslıq görüşlərindən bəhs olunur. "Azərbaycan folklorunun toplanması, tədqiqi və nəşrində Eynəli bəy Sultanovun rolu" adlı ikinci fəsildə yazıçı-publisistin folklorşünaslıq fəaliyyəti tədqiq olunmaqla yanaşı, o, bir folklor toplayıcısı və folklor naşiri kimi də tanıdılır. Üçüncü, əsas fəsil "Eynəli bəy Sultanovun yaradıcılığında folklor ənənəsi" adlanır. Burada əsas diqqət görkəmli yazıçı-publisistin yaradıcılığında folklordan istifadəyə cəlb olunur. Onun əsərlərində folklor mövzu və süjetlərindən, atalar sözləri və məsəllərdən istifadəsi, yaradıcılığında xalq şeirinin və nağıl təhkiyəsinin yer alması tədqiq və təhlil olunur. Bu fəsildə E.Sultanovun publisistikasında da folklordan istifadəyə ətraflı nəzər salınır.

Bu tədqiqat əsərində əldə olunmuş elmi nəticələr böyük əhəmiyyət daşıyır. Monoqrafiyanın folklorşünaslığımıza gətirdiyi elmi yeniliklərin də bir qisminə diqqət yetirək: hər şeydən əvvəl, bu monoqrafiyaya qədər E.Sultanov haqqında yazılmış dissertasiyalarda ədibin həyatı, təhsil aldığı yer və məktəb illəri ilə bağlı yol verilmiş yanlışlıqlar, ayrı-ayrı tədqiqatçıların axtarışlarının nəticələri dəqiqləşdirilmişdir; Eynəli bəy Sultanovun folklorşünaslıq görüşləri geniş, ətraflı və əhatəli şəkildə araşdırılaraq müasir elmi prinsiplər əsasında öyrənilmişdir; onun milli folklor nümunələrimizin toplanması istiqamətində fəaliyyəti ilə bağlı araşdırmalar aparılmış, publisistikasında bu nümunələrdən istifadə etməsi də ilk dəfə olaraq araşdırılmışdır.

Kitabın cildinin arxasında müəllif haqqında məlumatla yanaşı, Elxan Yurdoğlunun ilk dəfə ekranda – 2016-cı ildə E.Sultanov haqqında Naxçıvan televiziyası tərəfindən çəkilmiş "Onun həyat amalı" sənədli filmində canlandırdığı Eynəli bəy obrazının müxtəlif epizodlardan təsviri olan fotolar verilmişdir ki, bu da gənc və istedadlı alimin uğurlu eynəlibəyşünaslıq fəaliyyətinin məcmusu və məntiqi davamı kimi maraq doğurur.

Bu yazını monoqrafiyanın elmi redaktoru, görkəmli akademik, XX əsr Azərbaycan ədəbiyyatının mükəmməl tədqiqatçısı İsa Həbibbəylinin kitab üçün yazdığı ön sözdən bir neçə cümlə ilə bitirməyi məqsədəuyğun saydım. Akademik yazır: "... Elxan Yurdoğlu-Məmmədovun ədibin folklorşünaslıq irsinə həsr olunmuş monoqrafiyası bu istiqamətdəki tədqiqatların əhatə dairəsini genişləndirir və tamamlayır.

..."Eynəli bəy Sultanov və folklor" monoqrafiyası müstəqillik dövrü Azərbaycan folklorşünaslıq elminə qiymətli töhfədir. Bu monoqrafiya folklor irsimizin toplanma təcrübəsi və araşdırılması səviyyəsini elmi səviyyədə əks etdirir. Eyni zamanda əsər Eynəli bəy Sultanovun timsalında folklorçunun vətənpərvərlik və milli mövqeyinin zənginliyinə işıq salmaqla yeni nəsil folklorşünaslar üçün konkret baxış bucağı müəyyən etməyə işıq salır. Elxan Yurdoğlu-Məmmədov məhz həmin ali prinsipləri dərindən mənimsəyən və uğurla həyata keçirən folklorşünas olduğunu isbat edir".

**Ələkbər QASIMOV**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

***Naxçıvan – qoca Şərqin ilk qədim insan məskəni. Sivilizasiyaların kəsişdiyi və intibahın yüksəldiyi ulu yurd yeri, min illərin gərgin və qarışıq məqamlarının şahidi olan müqəddəs türk torpağı. Hər daşında, hər qayasında hələ açılmayan nə qədər sirlər gizlənib. Torpaq laylarının altında hələ nə qədər açılmayan mətləblər var. Bu yurdun – Nuh Peyğəmbərin xeyir-dua verdiyi insanlarının nicata çatdığı məkan, Qorqud əmanəti, Əcəmi yadigarı Naxçıvanın bir memarlıq məktəbi olduğunu sübut edən faktlar sırasında memarlıq nümunələri də vardır. Belə zəngin memarlıq nümunələri arasında təmizliyin, paklığın, mədəniyyətin simvolu olan hamamlar xüsusi yer tutur. Ümumiyyətlə, Şərq xalqlarının qədim inancları arasında suya etiqad, suyun ilahiləşdirilməsi zaman-zaman ön planda dayanıb. Suyun həyat enerjisi olması ilə yanaşı, onun paklaşdırmaq, saflaşdırmaq xüsusiyyəti ilə bağlı inanclar da Şərq mədəniyyətinin tərkib hissəsi olub.***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Qədim Naxçıvan hamamları həm də qiymətli memarlıq abidələridir





Qoca Şərqin bütün bölgələrində, eləcə də Naxçıvanda ilk ictimai əhəmiyyətli bina kimi inşa olunan tikililərin sırasında hamamların xüsusi yeri olub. Aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələrinin sırasında onlarla hamam binasının qalıqları aşkar olunub, bunlardan bir neçəsi bərpa edilib. Lap qədimdə inşa olunan hamamlar orta əsrlərə məxsus binalardan xeyli dərəcədə fərqlənirdi. Onu da vurğulayaq ki, belə hamamlara təkcə şəhərlərdə deyil, həmçinin kəndlərdə də rast gəlmək mümkündür. Bir çox qaynaqlarda, eləcə də XVII əsr türk səyyahı Övliya Çələbinin Naxçıvan şəhəri haqqında öz qeydlərində bildirilir ki, "Cənabi" hamamı son dərəcə gözəl və işıqlıdır. Qapı və divarı şirəli kaşıdan, döşəmələri isə ağ mərmərdəndir. Hamam məhrabaları şahmat naxışı ilə bəzədilmişdir. Mehmanxanamıza yaxın Zal paşa hamamı vardır. Onun bütün qapı və divarı şirəli kaşılarla örtülmüşdur. Döşəməsi başdan-ayağa boz, sumağı və tünd-qırmızı mərmər daşlardandır. Hamamın bütün pəncərələri büllurdandır. Həyətin ortasında böyük bir hovuz var. Xülasə, gözəl havası olan bu hamamın tərifi, təmizliyi və gözəlliyini şərh etməkdə qələm belə acizdir".

Səyyahın qeyd etdiyi hamamlar, təəssüflər olsun ki, bu günümüzə qədər gəlib çıxmamışdır. Mənbələrdə qeyd edilir ki, Naxçıvanda günbəzli, səkkizbucaqlı salonlardan ibarət olan giriş və yuyunma otaqları, kiçik yerləşgələri, yuyunma yerində "xəzinə"ləri, "külxan" adlanan qızdırılma kamerası olan hamamlar xarakterik idi. Orta əsrlərə məxsus hamam binaları həm memarlıq, həm də iş prinsipi baxımından çox mükəmməldir. Hətta onların iş prinsipi bugünkü mühəndisləri də heyrətləndirir.

Hamam həmişə insanlar üçün rahatlıq, təmizlik, ümumiyyətlə, ruhun təzələndiyi məkan sayılıb. Etnoqraf alim, tarix üzrə elmlər doktoru Şirin Bünyadova yazır ki, ictimai hamamlar özünəməxsus funksiya daşımaqla yanaşı, həmçinin informasiya mübadiləsi məkanı kimi də önəmli mahiyyət daşıyır. "Hamam" sözünün mənası "isitmək"dir. Antik dövrlərdə yaşamış insanlara məlum olub ki, suda yaxalanmaq yorğunluğu çıxarmaqla yanaşı, bir çox xəstəliklərin qarşısını da alır. Bəlkə də, buna görədir ki, qədimdən hamamların tikintisinə xüsusi diqqət yetirilib. Qeyd edək ki, folklorumuzda da hamamla bağlı deyimlər, atalar sözləri, mahnıların olması təsadüfi deyildir.

Muxtar respublikamızda siyahıya alınmış hamamlar içərisində Ordubad hamamları çoxluq təşkil edir. Bu hamamların bir hissəsi məscidlərin yaxınlığında, bəzi hallarda isə məscidə bitişik şəkildə inşa olunmuşdur. Bu da məscidə gələnlərin burada yuyunub paklanması, dəstəmaz alması zərurətindən irəli gəlmişdir.

Ordubad rayonunun Gənzə kəndində Hacı Hüseynqulunun inşa etdirdiyi XV yüzilliyə aid memarlıq abidələrindən olan Gənzə hamamı bu günə qədər qorunub saxlanılan ən qədim tikililərdəndir. Ümumi sahəsi 213 kvadratmetr olan hamamı digər orta əsr hamamlarından fərqləndirən cəhət onun divarlarının günbəz, tağtavanlarının dağ daşıyla inşa olunmasıdır. Hamamın içərisini tavanın mərkəzində qoyulmuş baca vasitəsilə işıqlandırarmışlar. Onu isitmək üçünsə həm samandan, həm də odundan istifadə edərmişlər. Hamamı qalayanda bacanı örtərmişlər. Və bu minvalla yaranan istilik xəzinədəki suyu isidərmiş.

Yeraltı hamamlar qrupuna daxil olan və tarix-memarlıq abidələrinə aid edilən Ordubad rayonunun Nüsnüs kəndindəki XIV-XV əsrlərə məxsus Nüsnüs hamamı da bir çox qədim memarlıq nümunələri kimi qeydə alınmışdır. Bu hamamın üç bacası vardır. Hamamın zallarının tavanı dairəvi günbəz, dərin taxçalar tağ-tavanla qapanır. Onu digər orta əsr hamamlarından fərqləndirən cəhəti divarlarının, günbəz və tağ-tavanlarının Gənzə kəndində olduğu kimi, dağ daşıyla inşa olunmasıdır.

Ordubad memarlıq abidələrinə daxil olan XVIII əsrə aid edilən daha bir abidə var ki, bu da Düylün hamam abidəsidir. Düzdür, abidə yarımdağılmış vəziyyətdədir. Ancaq öz tarixi quruluşunu bu günə qədər qismən qoruyub saxlaya bilmişdir. Bu hamam orta əsr hamamlarının təkrarı sayılır. Qeyd edək ki, hamam girişdə böyük vestibüldən ibarətdir. Bu hamamda mərkəzi salon səkkizbucaqlı formadadır. Zalın divarları boyunca dərin taxçalar yerləşdirilib. Tavan dairəvi günbəzlə örtülüb. Yuyunma otağı və ona birləşən otaqların altından isti hava verən kanallar gedirmiş. Kanallardan biri xəzinəyə, digəri isə yuyunma zalında yerləşdirilən boru vasitəsilə axaraq kiçik hovuzlara tökülürmüş. Maraqlısı odur ki, sal daşdan və ya çay daşından inşa olunmuş bu hamamı qızdırmaq üçün samandan istifadə edərmişlər.

Ordubad rayonunun Üstüpü kəndində Haçalı məhəlləsində, Düylün çayının sol sahilində yerli dağ, çay daşından, bişmiş kərpicdən inşa edilmiş, XVII-XVIII əsrlərə aid Üstüpü hamamı da öz memarlıq quruluşu ilə fərqlənir. Dağılmış vəziyyətdə olan bu abidəyə diqqət yetirəndə görürsən ki, dövrünün ən yaxşı memarlıq nümunələrindən biri olmuşdur. Abidənin girişi qərbdən imiş. Bu gün də soyunma, yuyunma otaqları qalmaqdadır.

Uzun küçə vasitəsilə kəndin meydanından yaşayış məhəllələrinə çıxışı olan, XVIII əsrə aid tarix-memarlıq abidələrinə daxil edilən Vənənd hamamı da Ordubadda tikilmiş bir çox hamamlara bənzəyir. Bu abidənin də divarları dağ daşı və bişmiş kərpiclə inşa olunmuşdur. Buraya giriş soyunma zalının sağındakı vestibüldəndir. Tikili bu gün də qorunub saxlanmaqdadır.

Əylis hamamı isə XVII-XVIII əsrlərə aid edilir. Bu hamamın salonlarında sferik tavanlar vestibüllərin çatma tağ-tavanlarıyla birləşir. Qeyd edək ki, hamamın zallarında, künclərdə yuyunma taxçaları yerləşdirilmişdir. Taxçaların hər iki tərəfində oturmaq üçün yerlər düzəldilmiş, su götürmək üçünsə təknələr qoyulmuşdur. Hamamın ocağı xəzinənin aşağısında, arxa tərəfdə yerləşdirilmişdir. Yaxınlıqda olan çeşmədən isə hamamın suyu götürülərmiş. Kənd adamlarının dediklərinə görə, son illərə qədər hamamdan istifadə olunmuşdur.

Bu xalqın yurdsevər övladları eli üçün, yurdu üçün hər zaman xalqına xidmət etməyə çalışmışlar. Şahtaxtılı Tovuz xanım da XVIII əsrin sonunda Şərur rayonunun Yengicə kəndində Yengicə hamamını inşa etdirmişdir. Hamam kəndin mərkəzində böyük bir ərazini tutan Çarşıbazarın başlanğıcında inşa olunmuşdur. İki səkkizbucaqlı zaldan və onlara bitişik iki köməkçi otaqdan ibarət olan bu hamamın ilkin quruluşu onu başqa hamamlardan fərqləndirir. Hamam bişmiş kərpiclə, əhəng məhlulu istifadə olunmaqla tikilmişdir. Dağıntıya məruz qalmış hamam baca və divarlarda açılmış kiçik pəncərələrlə işıqlandırılırmış. XVIII əsrin yadigarı olan hamamdan XX əsrin ortalarına qədər Yengicə kəndi ilə bərabər, ətraf kəndlərin əhalisi tərəfindən də istifadə olunmuşdur. Qaydaya uyğun olaraq, hamam həftənin 3 günü qadınlara, 3 günü isə kişilərə xidmət etmişdir. Hazırda Yengicə hamamında bərpa işləri aparılır.

Tikinti üslubu Şahtaxtı hamamı ilə eyni olan, XIX əsrə aid edilən, üstü tağbəndlərlə saxlanan, iki günbəzlə örtülmüş, dördkünc formalı hamamlardan biri də Kəngərli rayonunun Xok kəndinin mərkəzində yerləşən Xok hamamıdır. Bu tikili sadə planlaşma həlli olan, bir-biri ilə əlaqəli, bir neçə otaqlı hamamlara aiddir.

Ta qədimlərdən bizim elin bir adəti var: yol, körpü salmaq, məscid, hamam tikdirmək. Əsədulla Kərimbəy də bu xeyriyyəçi insanlar kimi Babək rayonunun Nehrəm kəndində hamam-memarlıq abidəsi tikdirmişdir. XVIII əsrin ortalarında tikilən bu abidə hal-hazırda mövcud olmasa da, onun haqqında məlumatlar qeydə alınmışdır.

XVIII-XIX əsrlərə aid Şərq memarlıq üslubunda inşa olunmuş Ordubad hamamı XX əsrdə bir neçə dəfə təmir edilmişdir. Memarlıq nümunəsi olan bu hamamın suyu yaxınlıqdan keçən Qarahovuz çeşməsindən götürülürmüş. Başqa hamamlarda olduğu kimi, bu hamamda da yuyunma zalı, ona birləşən otaqların altında isti havanın dövr etməsi üçün kanallar düzəldilmiş və əhali bu kanallardan gələn isti sudan istifadə edərmiş. Hamamın şərq tərəfində yuyunma zalına bitişik su hovuzu və onun altında ocaqxana olub.

XIX əsrin ikinci yarısında İsa Sultan Şahtaxtlının babası İsa Sultan tərəfindən tikdirilmiş və ümumi sahəsi 210 kvadratmetr olan Kəngərli rayonunun Şahtaxtı kəndində yerləşən Şahtaxtı hamamı keçmişdə samandan istifadə edilməklə qızdırılırdısa, kənd sakinlərinin dediklərinə görə, bir müddət keçdikdən sonra hamamı mazutla qızdırmağa başlamışlar. Şahtaxtı hamamı yaxşı haldır ki, özünün ilkin quruluşunu indi də qoruyub saxlayır. Yeraltı hamamlardan fərqli olaraq, bu hamam yarım yeraltı hamam sayılır. Yaşlı insanların dediyinə görə, hamam həm də kənd adamlarının istirahət yeri olubmuş.

*Muxtar respublikamızda tarix-mədəniyyət abidələrinə, keçmiş irsə diqqət və qayğı yüksək səviyyədədir. Son iyirmi il ərzində müxtəlif təyinatlı tarix-memarlıq abidələri orijinallığı saxlanılmaqla yüksək səviyyədə bərpa olunaraq xalqa qaytarılmışdır. Bu iş tariximizin, mədəniyyətimizin araşdırılması və ənənələrimizin yaşadılması, təbliği baxımından olduqca böyük əhəmiyyət daşımaqdadır.*

**Şölə QADİRQIZI**
***Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin baş redaktoru***

## *"Gənclik"* instrumental ansamblının konserti olub

***Dünən Şərur şəhərinin "Bahar" kinoteatrında 18 sentyabr – Milli Musiqi Günü ərəfəsində Naxçıvan Musiqi Kollecinin "Gənclik" İnstrumental Ansamblının konserti olub.***

Qeyd edilib ki, kollecdə təhsil alan tələbələrdən ibarət musiqi kollektivləri maraqlı konsert proqramları ilə müntəzəm olaraq ictimaiyyət qarşısında çıxış edirlər. Bu gün sizin görüşünüzə "Gənclik" İnstrumental Ansamblı rəngarəng konsert proqramı ilə gəlib.

İlk olaraq ansamblın ifasında şən musiqi kompozisiyaları səslənib. Sonra ansamblın gənc solistləri Samir İsmayılov, Əfsanə Babayeva, İlkin İsmayılovun ifalarında görkəmli bəstəkarlarımız Qəmbər Hüseynlinin "Bulağa gəlsin", Tofiq Quliyevin "Naxçıvanım", "Nargilə", Arif Məlikovun "Çıx yaşıl düzə", Emin Sabitoğlunun "Güllər", "Payız gəldi", Cahangir Cahangirovun "Yenilməz batalyon" filminə yazdığı musiqidən "Teymurun mahnısı" və başqa mahnılar səslənib.

Şən və lirik musiqi kompozisiyası ilə başa çatan konsert rayon sakinlərində xoş ovqat yaradıb.

Qeyd edək ki, Naxçıvan Musiqi Kollecinin "Buta" muğam ansamblı və "Naxçıvanqala" ritm qrupu sentyabrın 14-də Ordubad şəhərinin sakinləri qarşısında konsert proqramı ilə çıxış edəcək.

## *"Uzun ömrün akkordları"* filmi nümayiş etdirilib

*Dünən Kəngərli Rayon Mədəniyyət Evində Milli Musiqi Günü ilə bağlı dahi bəstəkarımız Üzeyir Hacıbəyovun ömür yolundan bəhs edən ikiseriyalı "Uzun ömrün akkordları" filmi nümayiş etdirilib.*

Filmin nümayişindən əvvəl Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış edərək böyük bəstəkarımızın həyat və fəaliyyətinə həsr olunmuş bu filmin 1981-ci ildə çəkildiyini bildirib. Qeyd edib ki, filmin ssenari müəllifi və rejissoru Xalq yazıçısı Anardır. Ekran əsərində bəstəkarın "Leyli və Məcnun", "Arşın mal alan", "Koroğlu" kimi əbədiyaşar əsərlərinin yaranma tarixindən söhbət açılır. Filmin maraqlı cəhətlərindən biri də burada bəstəkarın müasirlərinin – H.Zərdabi, Ə.Haqverdiyev, M.Maqomayev, H.Sarabski, C.Qaryağdıoğlu və başqalarının obrazlarının yaradılmasıdır. Filmdə bəstəkarın musiqisindən də geniş istifadə edilmişdir.

Sonra Qıvraq qəsəbə Uşaq Musiqi Məktəbinin müəllimi Nigar İbrahimova "Azərbaycan musiqi mədəniyyəti tarixindən" mövzusunda çıxış edib. Bildirilib ki, Azərbaycan musiqi mədəniyyəti çox qədim və zəngin ənənələrə malikdir. Muğamlar, musiqi folkloru, aşıq musiqisi və XX əsrdə formalaşmış və inkişaf etmiş Azərbaycan bəstəkarlıq məktəbi ecazkar və sehrli sənətimizin əzəmətini və möhtəşəmliyini aydın göstərir. Dərin məzmunu, yüksək milliliyi və bəşəriliyi ilə seçilən Azərbaycan musiqisi iftixar mənbəyimizdir.

"Uzun ömrün akkordları" bədii filmi tamaşaçılar tərəfindən maraqla izlənib.

**Əli RZAYEV**

### *İtmişdir*

İsmayılov Coşqun Arzu oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov Coşqun Arzu oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

İsmayılova Aytac Vaqif qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ *qapısı*
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 724